Jos-Jd Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:24 Page 334

# PETERİN İKİNCİ MƏKTUBU

## GİRİŞ

*«Peterin İkinci Məktubu»* ilk məsihçilərə ünvanlanıb. Peter bu məktubda yanlış təlim yayan müəllimlərə və oradan qaynaqlanan mənəviyyatsızlığa qarşı mübarizə aparır. Bu problemlərin cavabı Allahın və Rəbb İsa Məsihin əsl təlimini bilməkdir. Bu təlimi isə İsa Məsihi şəxsən tanıyan və Onun təlimini eşidən adamlar düzgün çatdıra bilərdi.

Müəllif İsa Məsihin zühuru haqqında olan yanlış təlimə görə xüsusən narahatdır. Peterə görə Məsihin zühuru ona görə yubanır ki, «O heç kəsin həlak olmasını istəmir, amma hər kəsin tövbə etməsini istəyir» (3:9).

***Kitabın məzmunu:***

1:1-21 Salamlama və məsihçinin çağırışı
2:1-22 Yanlış təlim yayanlar barəsində
3:1-13 Rəbbin günü
3:14-18 Öyüd-nəsihətlər

**1** 1İsa Məsihin qulu və həvarisi mən
Şimon Peterdən Allahımız və
Xilaskarımız İsa Məsihin salehliyi
sayəsində bizimlə bərabər qiymətli
iman əldə etmiş olanlara salam!
2Allahı və Rəbbimiz İsanı tanıdıqca
lütf və sülh sizə bol-bol verilsin!

### *İlahi çağırış*

3Bizi Öz izzəti və alicənablığına
Çağıranın ilahi gücü Onu tanımağımız
vasitəsilə yaşamağımız və mömin
olmağımız üçün lazım gələn hər şeyi
bizə bəxş etdi. 4Beləliklə, O bizə çox
böyük və dəyərli vədlər verdi ki,
bunlar vasitəsilə ehtirasın nəticəsi
olan dünyadakı pozğunluqdan qaçıb
ilahi təbiətə şərik olasınız. 5Elə buna
görə də siz bütün səylə imanınıza
alicənablıq, alicənablığınıza bilik,
6biliyinizə nəfsə hakim olmaq, nəfsə
hakim olmağınıza dözüm, dözümü-
nüzə möminlik, 7möminliyinizə qar-
daşlıq sevgisi və qardaşlıq sevgisinə
məhəbbət əlavə edin. 8Çünki əgər
bunlar sizdə varsa və artırsa, sizi
Rəbbimiz İsa Məsihi tanımaqda
fəaliyyətsiz və səmərəsiz olmaqdan
qoruyacaq. 9Bunlar kimdə yoxdursa,
o kordur, uzağı görə bilməz və əvvəlki
günahlarından təmizləndiyini unut-
muşdur. 10Beləliklə, ey qardaşlar,
çağırıldığınızı və seçildiyinizi təsdiq
etmək üçün daha da səy göstərin.
Çünki əgər bunu etsəniz, heç vaxt
büdrəməzsiniz. 11Beləcə Rəbbimiz və
Xilaskarımız İsa Məsihin əbədi Pad-
şahlığına girmək səlahiyyəti sizə bol-
bol ehsan ediləcək.

12Ona görə də bunları bilsəniz və
sahib olduğunuz həqiqətlə möhkəm
dursanız da, daima bunları sizə xa-

Jos-Jd Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:24 Page 335



tırladıram. 13Bu bədəndə yaşadığım
müddətdə xatırlatmaqla sizi oyandırmağı
doğru hesab edirəm. 14Çünki
Rəbbimiz İsa Məsihin mənə bildirdiyi
kimi, bu bədəndən ayrılmağımın yaxın
olduğunu bilirəm. 15Buna görə də
çalışıram ki, mən bu dünyadan köçdükdən
sonra da siz bunları həmişə
yada salasınız.

### *Məsihin izzəti və peyğəmbərlik sözü*

16Rəbbimiz İsa Məsihin qüdrətini
və zühurunu sizə bildirərkən uydurma
əfsanələrə əsaslanmadıq. Amma öz
gözümüzlə Onun uluduğunun şahidləri
olduq. 17Çünki Böyük Ehtişamı Olandan
Ona belə bir səs gəldi: «Bu Mənim
sevimli Oğlumdur, Ondan razıyam».
O vaxt Ata Allahdan izzət və şərəf
qəbul etdi. 18Müqəddəs dağda Onunla
birgə olduğumuz üçün göydən gələn
bu səsi biz də eşitdik.

19Həmçinin bizdə daha əmin olan
peyğəmbərlik sözləri var. Onlar qaranlıq
yerdə işıq saçan bir çırağa bənzəyir.
Səhər açılıb dan ulduzu ürəklərinizdə
doğana qədər bu sözlərə diqqət verirsinizsə,
yaxşı edirsiniz. 20Hər şeydən
əvvəl bunu bilməlisiniz ki, Müqəddəs
Yazılardakı peyğəmbərlik sözlərinin
heç birini şəxsən şərh etmək olmaz.
21Çünki heç vaxt peyğəmbərlik insan
iradəsi ilə qaynaqlanmamışdır, lakin
Müqəddəs Ruh tərəfindən yönəldilən
insanlar Allahdan gələn sözləri söylədi.[a]

### *Yanlış təlim yayanların aqibəti*

*(Yəhd. 3-16)*

2 1Amma Allahın xalqı arasında
yalançı peyğəmbərlər də ortaya
çıxdı. Eləcə də sizin aranızda yanlış
təlim yayanlar ortaya çıxacaq. Bunlar
hətta özlərini satın alan Sahibini inkar
edib gizlicə aranıza dağıdıcı və təfriqəçi
təlim gətirəcəklər. Belələri öz
başlarına tezliklə həlak gətirəcək.
2Hətta çoxları onların pozğunluğuna
qoşulacaq və onların üzündən həqiqət
yoluna küfr ediləcək. 3Tamahkarlıqlarından
uydurma sözlərlə sizi
istismar edəcəklər. Onların mühakiməsi
çoxdan davam edir və həlakı hazırdır.

4Çünki Allah günahkar mələkləri
cəzasız qoymadı, onları qiyamət gününə[b]
qədər saxlanmaq üçün cəhənnəmə
ataraq zülmətdə buxovladı.[c] 5O, allahsız
adamların yaşadığı qədim dünyaya
daşqın göndərərək o dünyanı cəzasız
qoymadı, amma səkkiz nəfəri, o cümlədən,
salehliyi bəyan edən Nuhu
qoruyub saxladı. 6O, Sodom və
Homorra şəhərlərini yandırıb-yaxaraq
viran olmağa məhkum etdi və beləliklə,
gələcəkdə olan allahsız adamlara[d]
nümunə göstərdi. 7Pozğun insanların
əxlaqsız həyat tərzindən əziyyət
çəkən saleh Lutu isə qurtardı. 8Çünki
onların arasında yaşayan bu saleh
insan günbəgün onların qanunsuz
əməllərini görüb-eşidib öz saleh ru-

a **1:21** *İnsanlar Allahdan gələn sözləri söylədi* – bəzi əlyazmalarda *Allahın müqəddəs insanları danışırdılar.*
b **2:4** *Qiyamət gününə* – hərfi tərcümədə *mühakiməyə.*
c **2:4** *Cəhənnəmə ataraq zülmətdə buxovladı* – bəzi əlyazmalarda *cəhənnəmin qaranlıq çuxurlarına atdı.*
d **2:6** *Gələcəkdə olan allahsız adamlara* – bəzi əlyazmalarda *allahsız adamların başına gələcək şeylər haqqında.*

**1:14** *Yəh. 21:18* **1:17-18** *Mat. 17:1-5; Mark 9:2-7; Luka 9:28-35* **2:5** *Yar. 6:1-7:24*
**2:6** *Yar. 19:24* **2:7** *Yar. 19:1-16*

Jos-Jd Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:24 Page 336



hunda iztirab çəkirdi. **9**Əlbəttə ki, Rəbb mömінləri sınaqdan necə qurtarmağı, haqsızları isə qiyamət gününə[a] kimi cəza altında necə saxlamağı bilir.

**10**O, xüsusilə, cismani murdar ehtirasına uyaraq ağalığa xor baxanları belə saxlayır. Belə adamlar həyasız və dikbaşdırlar, ehtişamlı varlıqlara şər atmaqdan qorxmurlar. **11**Halbuki onlardan qüvvət və qüdrətdə üstün olan mələklər Rəbbin önündə ehtişamlı varlıqlara şər ataraq ittiham etməz. **12**Bu adamlarsa sanki dərrakəsiz, qeyri-iradi surətdə aparılan heyvanlardır ki, tutulub kəsilmək üçün doğulublar. Onlar başa düşmədiyi şeylərə şər atır. Heyvanlar necə kəsilirsə, onlar da elə kəsiləcək. **13**Etdikləri zərərin əvəzini alacaqlar. Gündüz kef çəkməyi əyləncə sayırlar. Sizinlə yeyib-içərkən sanki aranızda ləkələr və nöqsanlar olaraq öz hiylələrindən zövq alırlar. **14**Onların gözləri zina ilə doludur, günahdan doymurlar. Qərarsız insanları yoldan çıxarırlar. Ürəkləri tamahkarlığa alışdırılmış lənətli insanlardır. **15**Haqsızlıqla əldə etdiyi qazancı sevən Beor oğlu Bilamın yolunu tutaraq düz yolu qoyub azdılar. **16**Bilam işlədiyi günaha görə ifşa olundu: dilsiz-ağızsız eşşək insan səsi ilə danışıb bu peyğəmbəri dəlilik etməkdən çəkindirdi.

**17**Bu insanlar susuz bulaqlar, qasırğanın dağıtdığı buludlar kimidir. Allah qatı qaranlığı onlar üçün saxlayır.[b] **18**Çünki boş və lovğa sözlər söyləyərək səhv yolla gedənlərin arasından çətinliklə qaçanları cismani ehtiraslarla və əxlaqsızlıqla yoldan azdırırlar. **19**Onlara azadlıq vəd edirlər, halbuki özləri pozğunluğun köləsidirlər. Çünki insan nəyə məğlub olarsa, onun köləsi olar. **20**Rəbbimiz və Xilaskarımız İsa Məsihi tanımaqla dünyanın çirkabından qaçdıqdan sonra yenə həmin işlərlə məşğul olub məğlub olarlarsa, son vəziyyətləri əvvəlkindən betər olar. **21**Çünki salehlik yolunu tanıyıb özlərinə əmanət edilən müqəddəs əmrdən geri dönməkdənsə bu yolu tanımamaq onlar üçün daha yaxşı olardı. **22**Bu doğru məsəllərdə deyilənlər onların öz başına gəldi: «İt öz qusuntusuna qayıdar» və «çimdirilmiş donuz palçıqda ağnamağa qayıdar».

### *Rəbbin günü*

**3** **1**Sevimlilər, indi bu mənim sizə yazdığım ikinci məktubdur. Hər iki məktubumda təmiz düşüncəli olmağınızı xatırladaraq sizi oyaq edirəm. **2**Müqəddəs peyğəmbərlərin qabaqcadan söylədiyi sözləri və Xilaskarımız Rəbbin həvarilərinizin vasitəsilə verdiyi əmri yada salmalısınız. **3**Hər şeydən əvvəl bunu bilməlisiniz ki, axır zamanda öz ehtiraslarına görə hərəkət edən rişxəndçilər gələcək və rişxəndlə **4**deyəcəklər: «Rəbbin vəd etdiyi zühuru haradadır? Axı ata-babalarımız vəfat edəndən bəri, yaradılışın başlanğıcından hər şey eyni cür olaraq qalır». **5**Onlar qəsdən unutmuşlar ki, Allahın kəlamı ilə göylər qədimdən bəri mövcuddur, quru da sudan ayrılaraq su vasitəsilə yarandı. **6**Yenə də su ilə, yəni daşqınla o dövrkü

a **2:9** *Qiyamət gününə* – hərfi tərcümədə *mühakimə gününə.*
b **2:17** *Saxlayır* – bəzi əlyazmalarda *əbədi saxlayır.*
**2:15-16** *Say. 22:4-35* **2:22** *Sül. 26:11* **3:3-4** *Yəhd. 18* **3:5** *Yar. 1:6-9* **3:6** *Yar. 7:11-12*

Jos-Jd Lat:Azeri Bible Cyrillic 04.03.2009 13:24 Page 337



dünya məhv oldu. 7İndiki yer və göylər
isə həmin kəlamla oda təslim olmaq
üçün təyin olunub, allahsızların
mühakimə və həlak olacağı günədək
saxlanılır.
8Sevimlilər, bu bir şeyi yadınızdan
çıxarmayın ki, Rəbb üçün bir gün min
il kimidir, min ilsə bir gün kimidir.
9Bəziləri bunu gecikmə sayar, amma
Rəbb vədini yerinə yetirməkdə gecik-
məz, lakin sizə görə səbir edir. Çünki O
heç kəsin həlak olmasını istəmir,
amma hər kəsin tövbə etməsini istəyir.
10Rəbbin günü isə oğru[a] kimi gələcək.
O gün göylər böyük gurultu ilə aradan
qalxacaq. Ünsürlər yanaraq məhv
olacaq. Yer üzü və onun üstündə hər
şey ifşa olunacaq.[b]
11Hər şey belə məhv olacaqsa, siz nə
cür insanlar olmalısınız? Müqəddəs
həyat sürməli, mömin olmalısınız.
12Allahın zühur gününü gözləyərək
tezləşdirməlisiniz. O gün göylər od
tutub məhv olacaq və ünsürlər yanıb
əriyəcək. 13Amma biz Allahın vədinə
əsasən salehliyin sakin olacağı yeni
göyləri və yeni yeri gözləyirik.

### *Öyüd-nəsihətlər*

14Buna görə, sevimlilər, madam ki
bunları gözləyirsiniz, Allahın önündə
ləkəsiz və nöqsansız olaraq sülh içində
yaşamağa səy göstərin. 15Sevimli qar-
daşımız Paulun da ona bəxş edilmiş
müdrikliklə sizə yazdığı kimi, Rəb-
bimizin səbrini də xilas fürsəti kimi
sayın. 16Paul bütün məktublarında bu
mövzulara eyni cür toxunur. Mək-
tublarında çətin başa düşülən bəzi işlər
var; cahillər və qərarsızlar digər
Müqəddəs Yazılar kimi bunların da
mənasını təhrif edərək öz həlaklarına
səbəb olurlar.
17Beləliklə, siz, ey sevimlilər, bunu
əvvəlcədən bilib pozğun adamlar sizi
aldadaraq yoldan azdırmasın və
sabit vəziyyətinizdən ayrılmayasınız
deyə özünüzü qoruyun. 18Lakin Rəb-
bimiz və Xilaskarımız İsa Məsihin
lütfündə və Onu tanımaqda böyüyün.
Ona indi və əbədi olaraq izzət olsun!
Amin.

a **3:10** *Oğru* – bəzi əlyazmalarda *gecə gələn oğru.*
b **3:10** *İfşa olunacaq* – bəzi əlyazmalarda *yanıb yox olacaq.*
**3:8** *Zəb. 90:4* **3:10** *Mat. 24:43; Luka 12:39; 1Sal. 5:2; Vəhy 16:15*
**3:13** *Yeşua 65:17; 66:22; Vəhy 21:1*